# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№308/2** **22 fevral 2019-cu il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konspsiyasına (2012-2020-ci illər)" müvafiq olaraq və Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 8.2-ci "Auditorlar Palatasının struktur bölmələrinin 2018-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabatlarının hazırlanması" və 8.4-cü "Auditorlar Palatasının 2018-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" bəndlərinin icrası ilə əlaqədar hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabatı" müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə fəaliyyətinin yekunlarına dair hazırlanmış hesabat" bəyənilsin (əlavə olunur) və Auditorlar Palatasının fəaliyyəti qənaətbəxş qiymətləndirilsin.
2. Məsul icraçılara (S.Gülməmmədov, Q.Bayramov, N.Talıbov, F.Qarayev) tapşırılsın ki, cari ilin 15 mart tarixinədək "Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın icmalının hazırlanıb Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və digər aidiyyatı qurumlara göndərilməsini təmin etsinlər.
3. Sədrin müşaviri F.Qarayevə, Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini F.Kamalovaya tapşırılsın ki, cari ilin 15 aprel tarixinədək "Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın icmalının Azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini və Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsini təmin etsinlər.
4. Auditorlar Palatasının rəhbərliyi tərəfindən bu hesabatın ictimaiyyətə açıqlanması məqsədilə KİV-də məqalə və şərhlərin dərc etdirilməsi məqsədəmüvafiq hesab edilsin.

**Palata sədrinin müavini** **Fəxrəddin İsmayılov**